# “Abay ili”ndə



**Vüqar Məmmədov,**
*AMEA-nın Şərqşünaslıq İnstitutunun aparıcı elmi işçisi, f.ü.f.d.*

Görkəmli qazax ədibi Abay Kunanbayevin 175 illiyi dönəmi AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutu, bu elm müəssisəsinin Abayşünas alimləri, xüsusən institutun Türk filologiyası şöbəsinin baş elmi işçisi, uzun illərdir Abay Kunanbayevə dair tədqiqatlar aparan filologiya üzrə elmlər doktoru, professor Elman Quliyev üçün zəngin olub.

E.Quliyevin “Abay Kunanbayev” kitabı ötən ilin yayında Türkiyədə TÜRKSOY tərəfindən çap edilib. Kitabın təqdimatı avqust ayında TÜRKSOY tərəfindən onlayn formatda keçirilib. Həmin tədbirdə Abay Kunanbayev barəsində geniş çıxış edən şərqşünas alim daha sonra noyabrın 18-də TÜRKSOY və Trakya Universitetlər Birliyinin təşkilatçılığı ilə keçirilən "Böyük Qazaxıstan mütəfəkkiri Abay, anadan olmasının 175-ci ildönümündə" adlı beynəlxalq onlayn konfransda məruzə edib. Beynəlxalq konfransı Kırklareli Universiteti Balkan Araşdırmalar Mərkəzinin müdiri dr. Ertuğrul Karakuşun idarə edib. Tədbirdə açılış nitqini TÜRKSOY-un baş katibi Düsen Kaseinov və Kırklareli Universitetinin rektoru, prof., dr. Bülent Şengörür ediblər.




Konfransda ilk məruzəni professor Elman Quliyev edib. "Qazax ədəbiyyatının inkişafında Kunanbayevin rolu" mövzusunda məruzəsində o, Abay Kunanbayevin həm ictimai xadim, həm yazar kimi qazax xalqına böyük xidmət göstərdiyini vurğulayıb. Məruzəçi klassik qazax ədəbiyyatının qurucusunun, eyni zamanda modern ədəbiyyat olaraq maarifçi-realist, tənqidi-realist




ədəbiyyat istiqamətində xidmətlərindən danışıb. E.Quliyevin qazax maarifçi realist ədəbiyyatının banisi Abay Kunanbayevin xalq şeiri ənənələrinə bağlı olaraq, realist təsvir üslubunun zənginliyi, maarifçilik ideyalarının və milliliyin təbliği, ictimai bərabərsizliklərə, sosial eybəcərliklərə, savadsızlığa, cəhalət, xurafat və s.-yə tənqidi münasibət baxımından da qazax ədəbiyyatının mövqeyini formalaşdıra bildiyini qeyd edib.

Dekabrın 9-da isə AMEA akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunda Abay Kunanbayevin 175 illiyinə həsr olunmuş elmi sessiya keçirilib.

Tədbiri giriş sözü ilə açan AMEA-nın birinci vitse-prezidenti, akademik İsa Həbibbəyli Abay Kunanbayevi XIX əsr qazax modern ədəbiyyatının qurucusu və ilk realist şairi kimi dəyərləndirərək, şairin 175 illiyinin türk dünyasında geniş qeyd edildiyini bildirib və AMEA-da da il ərzində bununla bağlı bir sıra tədbirlərin keçirildiyini qeyd edib. Akademik İ.Həbibbəyli Şərqşünaslıq İnstitutunun keçirdiyi elmi sessiyadakı məruzələrin Azərbaycan Abayşünaslığını zənginləşdirəcəyinə əminliyini bildirib.



Şərqşünaslıq İnstitutunun direktoru, akademik Gövhər Baxşəliyeva tədbirdə çıxış edərək bildirib ki, Abay Kunanbayev XIX əsr qazax yazılı ədəbiyyatında şeirə mövzu, forma, dil, üslub, vəzn yenilikləri gətirmiş qüdrətli söz ustadıdır. 2020-ci ilin TÜRKSOY tərəfindən "Abay ili" elan edildiyini xatırladan akademik G.Baxşəliyeva Şərqşünaslıq İnstitutunda Abay yaradıcılığı ilə bağlı tədqiqatlar aparıldığını və keçirilən elmi sessiyanın da İnstitutun bu istiqamətdə mühüm addımlarından olduğunu deyib.

Professor Elman Quliyev sessiyada "Abay Kunanbayevin lirikası" mövzusunda məruzə edib. Şairin lirik yaradıcılığı barədə ətraflı danışan E.Quliyev Abay Kunanbayev poeziyasının rəngarəng mövzu dairəsi olduğunu, onun əxlaqi-didaktik şeirlərində təhsil, elm və tərbiyə məsələlərinin əks olunduğunu, həmçinin mənəvi-əxlaqi meyarların müəyyənləşdirildiyini qeyd edib. Məruzəçi bildirib ki, Abay Kunanbayev klassik poeziya və xalq şeiri ənənələrindən bəhrələnərək onlara yaradıcı yanaşmış, gözəl poetik nümunələr ərsəyə gətirmiş və onun şeirə dil, üslub, mövzu baxımından gətirdiyi yeniliklər qazax ədəbiyyatında yeni şeir ənənəsinin əsasını qoymuşdur.

Şərqşünaslıq İnstitutunun aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru, dosent Təranə Həşimova sessiyada "Müasir qazax yazılı ədəbiyyatının banisi Abay Kunanbayev və dünya ədəbiyyatı" mövzusunda məruzə edib. T.Həşimova bildirib ki, şair qazax folklorundan, qa-



zax poeziyasından, eyni zamanda klassik Şərq poeziyasından bəhrələnərək qazax ədəbiyyatına yeniliklər gətirmişdir. Şairin dünyagörüşünün formalaşmasında Şərqin alim və şairləri qədər Qərb mütəfəkkirlərinin də rolu olmuşdur. Böyük maarifçi Abay Kunanbayevin Şərq və Qərb ədəbi mühitinə necə daxil olmasından danışan məruzəçi, onun şeir yaradıcılığının ilk dövründə Şərqin böyük mütəfəkkirləri sırasında böyük Nizami və Füzulinin sənəti və şəxsiyyəti qarşısında hesabat verdiyini bildirib, şair kimi formalaşmasında onların sənətinin böyüklüyünü qeyd etməsinə dair nümunələr gətirib.

Sessiyanın sonunda məruzələr ətrafında müzakirələr aparılıb.

“Abay ili”ndə xüsusi fəal olan professor Elman Quliyevin fəaliyyəti 2021-ci ildə mükafatlandırılıb. Şərqşünas alim Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı (TÜRKSOY) tərəfindən dahi şairin anadan olmasının 175 illiyi şərəfinə elan edilmiş “Abay Kunanbayev İli” çərçivəsində görülən işlərin yekunu olaraq “Abay 175 il” xatirə medalı ilə təltif olunub. Mükafatlandırma yanvarın 21-də Qazaxıstanın Azərbaycandakı səfirliyində “Abayı oxuyarkən” art-albomunun təqdimatı zamanı baş tutub. Art-alboma türk ölkələri rəssamlarının dahi qazax şairi və mütəfəkkirinin əsərlərinin motivləri əsasında çəkdiyi əl işləri daxildir. Albom dahi şairin anadan olmasının 175 illiyi şərəfinə elan edilmiş “Abay Kunanbayev İli” çərçivəsində TÜRKSOY tərəfindən buraxılıb.



Təqdimat mərasimində TÜRKSOY-un Baş katibi Düsen Kaseinov, Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva, Qazaxıstanın Azərbaycandakı səfiri Serjan Abdıkarimov, Azərbaycan-Qazaxıstan dostluq cəmiyyətinin vitse-prezidenti Eldar İsmayılov, həmçinin Azərbaycanın elmi və yaradıcı dairələrinin nümayəndələri iştirak ediblər.

Tədbir iştirakçıları qarşısında çıxış edən D.Kaseinov vurğulayıb ki, xalq şairi, mütəfəkkir, maarifçi və qazax milli ədəbiyyatının banilərindən biri olan Abay təkcə Qazaxıstana deyil, həm də bütün türk dünyasına zəngin irs qoyub. Onun şeirləri və müdrik kəlamları bütün türk xalqlarının mədəniyyətinin zənginliyini və mənəviyyatını əks etdirir.

Tədbirin gedişində dahi qazax şairinin adının və irsinin tanıdılmasına böyük töhfələr verən şəxslərə “Abay 175 il” xatirə medallarının və təşəkkür məktublarının təqdimatı mərasimi keçirilib. Professor Elman Quliyev, Bakı Dövlət Universiteti (BDU) nəzdində Abay adına Qazax dili, tarixi və mədəniyyəti mərkəzinin rəhbəri Fatimə Dursunova, BDU-nun Türkologiya kafedrasının müdiri Ramiz Əsgərov, jurnalist-publisist Aida Eyvazova, yazıçı-nasir Nəriman Əbdülrəhmanlı, BDU-nun Türkologiya kafedrasının professoru Firuzə Ağayeva Fəxri mükafatlara layiq görülüblər.

Tədbirin sonunda qonaqlara dahi Abayın həyat və yaradıcılığı barədə sənədli film göstərilib, ənənəvi qazax təamları təklif olunub.

Professor Elman Quliyevin Abayşünaslıq sahəsindəki xidmətlərini Qazaxıstanın Mədəniyyət və İdman Nazirliyi də yüksək qiymətləndirib. Şərqşünas alim qazax ədəbiyyatı və mədəniyyətinin tədqiqi və təbliğindəki xidmətlərinə görə Qazaxıstan Respublikasının Mədəniyyət və İdman Nazirliyinin “Təşəkkür məktubu” ilə təltif edilib.

Qazaxıstan Respublikasının Azərbaycandakı səfirliyində keçirilən mərasimdə səfir Serjan Abdıkarimov “Təşəkkür məktubu”nu professor Elman Quliyevə təqdim edib.